

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

5 noyabr 2025-ci il, çərşənbə
№ 201 (7028)
Qiymət 60 qəpik


# Zəfər ayının 5-ci günü

## Qayıdış - ədalətin bərpasıdır!



Bax səh. 2

## Hər bir azərbaycanlının işi - dilin saflığının qorunması!

Bax səh. 3



## Zəngəzur dəhlizini kim inşa edəcək?

Bax səh. 5

## AMEA kürsüsündən hədəf çağırışları...

Bax səh. 4




## Ümumdünya Türk Dili Ailəsi Günü...

Bax səh. 3

## "Güzəşt ləğv olundu" yox, yeni mərhələli güzəşt tətbiq olunacaq

Bax səh. 2

## TDT ağsaqqalları Bakıda toplaşdı

Bax səh. 4

## Bakı-Tbilisi-Qars regional nəqliyyat habına çevrilir

Bax səh. 5

## Bir addımda sənət, bir addımda ailə mirası

Bax səh. 7

## İsrail Fələstin dövlətini tanıyacaqmı?



Bax səh. 7

## Avropa təhlükəsizliyini niyə Türkiyəyə etibar etmir?

Bax səh. 7

# Hər bir azərbaycanlının işi - dilin saflığının qorunması!

Qloballaşmanın meydana çıxardığı çağırışlardan biri də milli dillərin qorunması ilə bağlıdır. Reallıq həqiqətən çox kədərlidir. Verilən məlumatlara görə, ötən hər gün ölü dillərin siyahısı genişlənir və milli dillər üçün təhdidlər daha da artır. Etiraf edək ki, təhdidlər Azərbaycan dili üçün də yox deyil və bu, bir sıra amillərdən qaynaqlanır. Prezident İlham Əliyev bu günlərdə Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında dilimizin saflığının qorunması ilə bağlı növbəti dəfə narahatlığını bildirib və elm adamlarına, geniş ictimaiyyətə mühüm çağırışlar edib. “On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram”, - deyə dövlətimizin başçısı vurğulayıb.



Dövlətimizin başçısının bildirdiyi kimi, Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Eyni zamanda, biz qürur duyuruq ki, Azərbaycan dili müstəqil respublikamızın rəsmi dövlət dili statusuna malikdir. Dilimizin belə yüksək status qazanmasınadək isə uzun yol qət edilib ki, burada da xalqına, milli-mənəvi dəyərlərimizə həmişə möhkəm tellərlə bağlı olmuş böyük siyasətçi Heydər Əliyevin müstəsna xidmətləri olub. Ötən əsrin 70-ci illərin ortalarından başlayaraq keçmiş SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndi. Buna baxmayaraq, o dövrdə respublikamıza rəhbərlik edən Heydər Əliyev ana dili məsələsində öz mövqeyini hər zaman çox qətiyyətlə qorumağa müvəffəq oub. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına

## Heydər Əliyevin səyləri sayəsində Azərbaycan dilinə dövlət dili statusunun verilməsi

həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyev 73-cü maddənin aşağıdakı redaksiyada verilməsi təklifini irəli sürüb: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.”

Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, ötən əsrin 70-ci illərində Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilib, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılıb. Ali məktəblər üçün yazılmış dörd cildlik “Müasir Azərbaycan dili” dərsliyi 1974-cü ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülüb.

Sonrakı mərhələdə Heydər Əliyev Azərbaycan dili uğrunda mücadiləsini 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikamızda ikinci dəfə hakimiyyətə gəldikdən sonra davam etdirib. Müstəqil Azərbaycanın Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif müzakirələr aparılırdı. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapıb. Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilib, onun müxtəlif üslublarının potensialı bir daha üzə çıxarılıb, bütünlükdə dil mədəniyyətimiz qarşısında yeni üfüqlər açılıb.

## Dilin inkişafını və saflığının qorunmasını hədəfləyən çoxsaylı tədbirlər

Ana dilimizi qorumaq üçün mühüm addımlar atan Ulu Öndərin siyasi xətti Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının 2004-cü ildə imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” və “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” sərəncamlarına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunub. Hər iki sərəncam üzrə Azərbaycan və dünya ədəbiyyatı, eləcə də lüğət və ensiklopediyalar silsiləsindən ümumi tirajı 9 milyondan çox ədəbiyyat kitabxanalara göndərilərək oxucuların ixtiyarına verilib. Müasir Azərbaycan oxucularının dünya ədəbiyyatına olan mənəvi tələbatını təmin etmək məqsədilə ölkə Prezidenti 2007-ci il avqustun 24-də daha bir sərəncam imzalayıb. Həmin sərəncama əsasən Azərbaycan və dünya ədəbiyyatı nümayəndələrinin əsərlərindən ibarət 150 cildlik “Dünya ədəbiyyatı”nın nəfis şəkildə nəşri nəzərdə tutulub. Prezidentin 30 dekabr 2007-ci il tarixli sərəncamı ilə həmin əsərlərin siyahısı təsdiqlənib, 18 sentyabr 2008-ci il tarixli sərəncamla isə sözügedən nəşrlərin maliyyələşdirilməsi təmin edilib.

O cümlədən Prezident İlham Əliyev qloballaşma şəraitində dilimizin yad təsirlərdən qorunmasını, saflığının təmin edilməsini hədəfləyən bir sıra sənədlər imzalayıb. Dövlətimizin başçısının “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” 2012-ci il 23 may tarixli, “Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında” 2012-ci il 29 may tarixli, “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2013-cü il 9 aprel tarixli, “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli sərəncamları, “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli fərmanı, həmçinin “Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradıb.

## Geniş ictimaiyyətin üzərinə də böyük məsuliyyət düşür

Qloballaşma şəraitində dilin saflığının qorunmasına dövlətin güclü siyasi iradə ortaya qoyması və bu məqsədlə ardıcıl tədbirlər görməsi öz yerində. Burada geniş ictimaiyyətin, hər birimizin məsuliyyəti də böyükdür. Dilin daşıyıcısı xalqdır. Buna görə də cəmiyyət bu məsələyə həssas yanaşma ortaya qoymasa, dilimizin qorunması ilə bağlı arzulanan nəticələrin əldə edilməsi mümkün deyil. İlk növbədə ana dilini mükəmməl bilməsi, övladlarına bu dildə yaxşı təhsil verməsi hər bir azərbaycanlılnın mənəvi məsuliyyətidir. Gənclərin xarici dil biliklərinə yiyələnmələri nə qədər yaxşıdırsa, bu, heç bir halda ana dilinin arxa plana keçirilməsi hesabına edilməməlidir. Ictimai yerlərdə, dövlət müəssisələrində dövlət dilinin lazımi səviyyədə işlənilməsi təmin olunmalıdır.

Daha bir vacib məsələ zərurət olmadığı halda dilə əcnəbi sözlərin daxil edilməsi ilə bağlıdır. Azərbaycan dilinin lüğət tərkibi kifayət qədər zəngindir və istənilən fikri bu dildə sərbəst şəkildə ifadə etmək mümkündür. Di gəl ki, bəzi şəxslər zərurət olmadığı halda hansısa bir anlayışı əcnəbi sözlərlə ifadə etməyi üstünlük kimi dəyərləndirirlər. Belələrinin nəyə dəyər vermələri onların öz işidir. Ancaq söhbət dildən gedirsə, bu artıq şəxsi məsələ sayıla bilməz. “Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz FEYİZLİ*

# Ümumdünya Türk Dili Ailəsi Günü...

## UNESCO-nun qərarı ilə hər il 15 dekabrda bu gün qeyd ediləcək

**Özbəkistanın Səmərqənd şəhərində keçirilən BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) 43-cü Baş Konfransında 15 dekabr tarixi Ümumdünya Türk Dili Ailəsi Günü elan edilib. Baş Konfransda 194 ölkədən 5000-dən çox nümayəndə iştirak edib. Onlar Prezident Rəcəb Tayyib Ərdoğanın 15 dekabrı Ümumdünya Türk Dili Ailəsi Günü elan etmək təklifi ilə bağlı qətnamə layihəsini nəzərdən keçirib və təsdiqləyiblər.**

## 200 milyonluq türk ailəsi üçün...

Türkiyənin UNESCO-dakı daimi nümayəndəsi Gülnur Aybet iclasda çıxış edərək bütün türk dövlətləri tərəfindən UNESCO-nun himayəsi altında türk dil ailəsini qorumaq və təşviq etmək üçün hazırlanmış təklifin həmmüəllif ölkələrinə təşəkkür edib. Aybet dillərin yalnız ünsiyyət vasitəsi deyil, həm də nəsillər boyu kollektiv yaddaş, müdriklik və kimlik daşıyan sivilizasiyaların ruhu olduğunu vurğulayıb. Geniş bir ərazidə 200 milyondan çox insanın danışdığı türk dil ailəsi əsrlər boyu ortaq tarix və dəyərlərdən gələn zəngin bir mədəni irsi təmsil edir.

Vurğulanıb ki, 15 dekabr əlamətdar bir tarixdir, çünki bu, VIII əsrə aid olan türk dilində ən qədim yazılı sənədlər hesab edilən Orxon kitabələrinin ilk dəfə deşifrə edilməsini qeyd edir. Həmin əlamətdar gün türk sivilizasiyalarının ortaq mədəni və bədii sərvətinin rəmzidir, habelə bu xalqlar arasında mədəni yaxınlaşmaya və dialoqa töhfə verir. Aybet bildirib ki, UNESCO Ümumdünya Türk Dili Ailəsi Gününü təsis etməklə bir daha çoxdilliyə, mədəni müxtəlifliyə və xalqlar arasında dialoqa sarsılmaz sadiqliyini təsdiqləyir.

## Azərbaycan UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında üstün yerdədir

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da Səmərqənddə UNESCO-nun sözügedən tədbirində iştirak edib. Tədbirdə C.Bayramovun çıxışı zamanı Azərbaycanın UNESCO ilə tərəfdaşlığın mədəni irs və müxtəliflik, inklüziv təhsil, elmi tərəqqi və beynəlxalq həmrəyliyə dair ortaq öhdəliklərə əsaslandığı və donor ölkə olaraq mədəniyyət, elm, gənclərin imkanlarının genişləndirilməsi və mədəniyyətlərarası dialoq kimi sahələrdə irəli sürülən təşəbbüsləri dəstəklədiyi qeyd olunub. Eləcə də, ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə xüsusi önəm verdiyi, 2008-ci ildə Bakıda irəli sürülən və UNESCO tərəfindən dəstəklənən “Bakı Prosesi”nin bu istiqamətdə uğurlu nümunə kimi beynəlxalq səviyyədə tanındığı diqqətə çatdırılıb.

Nazir Azərbaycanın UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında 24 elementlə dünyada ön sıralarda yer aldığı bildirib. C.Bayramov çıxışında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağıdılmış mədəni irsinin bərpasının hökumətin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb, bu prosesdə minalanmış ərazilərin böyük maneə yaratdığını da söyləyib.

## Niyə məhz 15 dekabr?

Qeyd edək ki, Türkiyənin Xarici İşlər Nazirliyi UNESCO-nun məlum qərarı ilə açıqlama yayıb və 15 dekabrın Dünya Türk Dili Ailəsi Günü elan edilməsini məmnuniyyətlə qarşılayıb. Açıqlamada bildirilib ki, ölkəmiz və qardaş türk dövlətləri tərəfindən hazırlanmış bu qərar türk dünyasının ortaq irsi olan türk dilini qorumaq və onu gələcək nəsillərə ötürmək məqsədi daşıyan birgə səyləri daha da gücləndirəcək. Dünya Türk Dili Ailəsi Gününün türk dünyasının qədim şəhərlərindən olan Səmərqənddə elan edilməsinin xüsusi məna daşıdığını qeyd edən Türkiyə XİN açıqlamasında vurğulayıb: “Məlum olduğu kimi, məşhur türkoloq Vilhelm Tomsen 1889-cu ildə tapılmış və türk dilinin məlum olan ilk yazılı abidələri sayılan “Orxon” kitabələrinin türk dilində yazıldığını 1893-cü il dekabrın 15-də beynəlxalq elmi ictimaiyyətə təqdim etmişdi. Dünya Türk Dili Ailəsi Gününün türk dünyası və türkcə bilən, türkcə öyrənən dostlarımız üçün indidən xeyirli olmasını diləyirik”.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy isə sosial media hesabında belə bir günün təsis olunmasının Türkiyənin qardaş türk dövlətləri ilə birlikdə hazırladığı və 26 ölkənin birgə təqdim etdiyi ortaq təşəbbüs olduğunu bildirib: “Türk dillərinin tanıdılmasını artıran bu tarixi addım ortaq yaddaşımız olan türk dilinin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində beynəlxalq əməkdaşlığı daha da gücləndirəcək. Əməyi keçən hər kəsi təbrik edirəm. 15 dekabr -Dünya Türk Dili Ailəsi Günü bütün bəşəriyyətə ərməğan olsun”.




## Ortaq Türk Əlifbası razılaşdırıldıqdan sonra...

XXI əsrdə yeni dünya düzəninin formalaşdığı bir vaxtda Türk Dövlətləri Təşkilatı öz gücünü daha da artırır. Malik olduğu resurslar, əhali sayı, coğrafi mövqeyi baxımından Türk dünyası artıq qlobal miqyasda əsas geosiyasi, geoiqtisadi güc mərkəzlərindən birinə çevrilir. Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət, bir neçə muxtar ərazidən ibarət böyük coğrafi məkandır. 2009-cu ildə Naxçıvanda təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (indiki Türk Dövlətləri Təşkilatı) bu əməkdaşlığın daha da inkişaf etməsi və birliyin möhkəmlənməsi üçün mühüm platforma rolunu oynayır. 2021-ci ildə təşkilatın statusu və nüfuzu daha da yüksəldilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və bu addım Türk dünyasının beynəlxalq arenada söz sahibi kimi çıxış etməsinə imkan yaradır.

Türk Dövlətləri Təşkilatının təsis edilməsində əsas məqsəd oxşar tarixi-mədəni irsə, ortaq milli-mənəvi dəyərlərə, məişət tərzinə malik olan xalqların birliyini gücləndirmək, siyasi, ticarət və iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün yeni regional ümumtürk platformasının yaradılması olub. Qurumun fəaliyyət istiqamətləri siyasi dialoq, turizm, iqtisadiyyat, ticarət, gömrük, nəqliyyat,gənclər və idman, kənd təsərrüfatı, ədliyyə, miqrasiya, informasiya və s. sahələri əhatə edir.

Təbii ki, ən mühüm vəzifələrdən biri türk dövlətləri və xalqları arasında mədəni inteqrasiyanın dərinləşdirilməsidir. Ortaq əlifbanın razılaşdırılması bu istiqamətdə atılan çox mühüm addımdır. Xatırladaq ki, 2024-cü ilin sentyabr ayında Ortaq Türk Əlifbası razılaşdırılıb. Belə bir razılaşma Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan Türk Dünyası Ortaq Əlifba Komissiyasının üçüncü iclasında əldə olunub. Belə bir şəraitdə UNESCO-nun 15 dekabrı Ümumdünya Türk Dili Ailəsi Günü elan etməsi isə türk xalqları arasında inteqrasiyanı daha da gücləndirəcək.

*Nardar BAYRAMLI*

# AMEA kürsüsündən hədəf çağırışları...

## Azərbaycan elminin strateji yol xəritəsi



Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxış edən Prezident İlham Əliyev elmin iqtisadi inkişafda mühüm roluna diqqət çəkərək müasir çağırışlar fonunda Akademiyanın və elm ictimaiyyətinin qarşısında duran vəzifələri, alimlərin milli prioritetlərə uyğun fəaliyyət istiqamətlərini müəyyənləşdirdi.

Dövlət başçısının elan etdiyi mühüm hədəf prioritetləri Azərbaycan elminin strateji yol xəritəsi hesab edilə bilər.

AMEA qarşısında yeni üfüqlər açılıb, sağlam yaradıcılıq mühiti və əsil elmi rəqabət meydanı yaranıb. Alimlərin bu əlverişli fürsətdən daha səmərəli istifadə edərək sanballı elmi tədqiqatlar aparması, iqtisadiyyatla vəhdət təşkil edən yeni elmi kəşflərə imza atması, elmtutumlu iqtisadiyyata daha çox töhfə vermələri günün tələbidir.

Azərbaycan qısa müddətdə regionun qüdrətli və dinamik inkişaf edən dövlətinə çevrilib. Bu inkişafın təməlində təbii sərvətlərdən səmərəli istifadəyə əsaslanan iqtisadi islahatlar, infrastrukturların modernləşdirilməsi, insan kapitalına yatırımlar mühüm yer tutur. Dövlət başçısının təşəbbüsü ilə yüksək texnologiyalar, kosmik sənaye, informasiya-kommunikasiya texnologiyaları sahələrində xüsusi proqramlar icra olunur, Azərbaycan öz süni peykini orbitə çıxararaq qlobal kosmik fəzada öz layiqli imzasını təsdiq edib və "Azərkosmos" hazırda texnoloji transformasiyaya öz töhfəsini verir. Habelə ölkəmizdə innovasiya və startap ekosistemi formalaşdırılıb, süni zəka arxitekturası qurulub və dünyanın iri intellekt icması ilə sıx mübadilələr qurulur. Bütün bunlar yeni iqtisadi reallıqlar dövründə elmi sektorun üzərinə mühüm vəzifələr qoyur, sürətli transformasiya və texnoloji inqilab əsrinə daha hazırlıqlı olmalarını tələb edir.

Mühüm dövlət proqramları, qanunla təsdiqlənib, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası", "Azərbaycan Respublikasında sənayenin inkişafına dair Dövlət Proqramı", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi və digər əhəmiyyətli proqramlar təsdiq edilib. Həmin proqramlarda qüdrətli dövlət və yüksək rifah cəmiyyəti quruculuğuna nail olmaq üçün iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin - insan kapitalının müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın genişləndirilməsi və iqtisadi suverenliyin tam təmin olunması kimi ali hədəflər müəyyənləşdirilib.

Bütün bu sadalanan hədəf çağırışları elmi ictimaiyyəti texnoloji inqilaba, yeni industrial cəmiyyət quruculu-

### Enerji gəlirləri insan kapitalına yatırılır

ğuna inteqrasiyada ön planda olmasını labüdləşdirir.

Akademiyanın maddi-texniki bazası son illər hədsiz dərəcədə möhkəmləndirilib, akademiya şəhərciyində müasir Milli Ensiklopediya binası inşa edilib, innovasiyayönümlü tədqiqat infrastrukturları qurulub, Elm Fondu yaradılıb və elmin inkişafı üçün davamlı qrantlar verilir.

### Nəticəyönümlü tədqiqatlar iqtisadiyyatda əlavə dəyəri artırır

Milli elm elitası da dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişiklikləri yaxından izləyir. Texnoloji fraqmentasiyaların ölkələrarası rəqabəti daha da artırdığını, perspektiv həyatın dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacağını anlayır. Ona görə də dövlət başçısının qarşıya qoyduğu elmi tezislər gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün yüksək rəqabətli insan kapitalının formalaşdırılmasında AMEA-nın masaüstü gündəliyinə çevrilməlidir.

XXI əsrin tələblərinə uyğun elm və təhsil, yaradıcı və innovativ cəmiyyət, rəqəmsal ekosistem quruculuğunda alimlər müvafiq təşviqlərlə çıxış etməli, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı platformasının mühüm tərkib hissəsi olmalıdır. Onların yaratdığı elmi tədqiqlər və kəşflər sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla Azərbaycanın milli texnoloji ixrac məkanına çevrilməsini möhkəmləndirə bilər. Nəticəyönümlü elmi tədqiqatların təşviqi həm də rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırmaqla, elmtutumlu iqtisadiyyatın yaratdığı əlavə dəyəri də artırmaq gücündədir.

### Süni intellekt və texnoloji inqilab müasir elmi yanaşmalar tələb edir

Bu gün qlobal mühitdə rəqabətin yeni siması - süni intellekt mübarizəsi dərinləşir. Bir çox ölkənin iqtisadi dəyər zəncirində süni texnologiyalar və rəqəmsal xidmətlər əsas yer tutur. On il əvvəl bu sahə barədə heç kim danışmırdısa, indi inkişaf etmiş cəmiyyətlərin hərəkətverici bazisi süni zəka sektorudur. Çox təəssüf ki, ölkəmizdə özəl sektor və elmi icma əsas aparıcı xəttin - "mainstream"in arxasınca gedir. Prezident də bunu anlatmağa çalışır, Azərbaycanın biznes və elm nəslinin süni intellekt, texnoloji inkişaf əsrindən geri qalmamasını tövsiyə edir.

Habelə müasir dünyada uğurun açarlarından biri də rəqəmsallaşmadır. Ölkəmizdə də bu sahədə zəruri infrastrukturlar qurulub. Startaplar, bulud provayderləri ekosistemi formalaşıb, "Elektron hökumət" ehtiyatları cəmiyyətin bütün seqmentlərində tam təmin olunub, "Rəqəmsal dövlət" konsepti üzrə ən son həllərin tətbiqi işləri aparılır. Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması məqsədilə ən qabaqcıl rəqəmsal şirkətlərlə təcrübə mübadilələri həyata keçirilir, rəqəmsal sənayeyə sərmayələr yatırılır. "Rəqəmsal iqtisadiyyat"a töhfə verəcək elmi inteqrasiyanın keçidi prosesi isə tam qənaətbəxş deyil.

Habelə kibertəhlükəsizliklə bağlı ölkəmizdə güclü arxitektura qurulub, Kibertəhlükəsizlik Mərkəzinin yaradılması bu sahədə uzaqgörən qərarın nəticəsidir. Beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində fəal əməkdaşlıq kibertəhlükəsizlik immunitetini möhkəmləndirir. Ancaq bu prosesdə də elmi yanaşmalar, baxışlar yetərli deyil.

Tarixi Zəfərlə regionda yeni reallıqların müəllifinə çevrilən Azərbaycan postmünaqişə dövrünün bərpa və inkişaf yolunda irəliləməklə iqtisadiyyatın yeni strateji kursunu və rəqəmsal trendlərini də müəyyənləşdirir. Dövlət və iqtisadi qurumların qarşısında işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, təbii sərvətlərinin araşdırılması, ekoloji durumunun monitorinqi, iqtisadi resursların və təbii sərvətlərin dəyərləndirilməsi kimi konkret vəzifələr durur. Konseptioloji ssenarilər hazırlanır, azad ərazilərin geoloji-iqtisadi tədqiqatı üçün alimlər də bu prosesin mərkəzində olmaqla daha dəqiq və səmərəverici elmi-iqtisadi layihələr hazırlamalı, xarici biznes ailəsinə təqdim etməlidir. Bu layihələrin hər biri böyük kapital və sərmayə cəlb edəcək investisiya açarı deməkdir. Nəticədə 20 faizlik coğrafi resurs bölgəsində iqtisadi dəyərin elmtutumlu bazası formalaşmaqla Azərbaycanın iqtisadi-maliyyə qüdrətinin gücləınməsi üçün dayanıqlı sütunlar formalaşmış olur.

### Elmin praktik nəticələri olmalıdır

Həmçinin, Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Pilotsuz uçuş aparatları və digər hərbi texnologiya ilə Azərbaycan qlobal hərbi sektorda öncül yerlərə sahibdir və daha güclü ixrac sütunları yaratmaq niyyətindədir. Bu prosesdə dövlət və özəl sektor arasında işbirliyinin faydası da mühüm əhəmiyyət kəsb edir, faydaları artır. Hərbi elmin və kəşflərin bu sahəyə inteqrasiyası isə Azərbaycan müdafiə sektoruna daha böyük faydalar vermiş olardı.

Bütün bu qeyd edilənlərin fonunda yekun qənaət ondan ibarətdir ki, AMEA milli strateji düşüncənin, elmi innovasiyaların və qlobal elmi inteqrasiyanın mərkəzi olduğundan dövlətin inkişaf hədəflərinin lokomotivinə çevrilməlidir.

Beləliklə, Cənab Prezidentin də gözləntiləri budur ki, alimlər elmi-texnoloji tərəqqinin sürəti ilə ayaqlaşmalıdır, elmi tədqiqatlar yalnız akademik məqsədlər üçün deyil, iqtisadiyyatın tərəqqisinə və cəmiyyətin rifahına yönəlmiş praktiki vasitələr kimi çıxış etməlidir. Dövlət- biznes-elmi institutlaşma vəhdəti gücləndirilməlidir. Elmin praktik nəticələri olmalıdır, iqtisadiyyatın sürətli inkişafına uyğun əlaqələndirmə, uzlaşma daha yüksək səviyyəyə çatmalıdır.

**ELBRUS CƏFƏRLİ**

# TDT ağsaqqalları Bakıda toplaşdı

## Ağsaqqallar Şurasının 18-ci iclası keçirilib

**N.BAYRAMLI**

Noyabrın 4-də Bakıda Türk Dövlətləri Təşkilatı (TDT) Ağsaqqallar Şurasının 18-ci iclası keçirilib. Tədbirdə Azərbaycan, Türkiyə, Qırğızıstan, Qazaxıstan və Şimali Kipr Türk Cümhuriyyətini təmsil edən ağsaqqallar iştirak ediblər.

TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım bildirib ki, dövlət başçıları tərəfindən imzalanan son iki zirvə bəyannaməsində Türk Dövlətləri Təşkilatının daha da güclənməsinə, institusional və strateji inkişafına xidmət edən bir sıra mühüm maddələr qəbul edilib. Onun sözlərinə görə, bu sənədlər Türk dünyasının həm siyasi, həm də iqtisadi və mədəni baxımdan birliyini daha da möhkəmləndirəcək: "Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna tamhüquqlu üzv kimi qəbul edilməsi, Türkmənistanın Türk Akademiyası və Türk Mədəniyyəti və İrsi Fonduna, eləcə də Şimali Kipr Türk Cümhuriyyətinin Türk Akademiyasına müşahidəçi statusu ilə qoşulması, Türk dövlətlərinin təşkilat çərçivəsində təmsilçiliyini əhəmiyyətli dərəcədə genişləndirib və gücləndirib".

Şura sədri əlavə edib ki, Türk dünyasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq xəttini uzun illər uğurla davam etdirən TÜRKSOY-un hüquqi, maliyyə və kadr potensialının gücləndirilməsi istiqamətində qəbul edilən qərar da xüsusi əhəmiyyət kəsb edir. Onun fikrincə, bu addım Türk dünyasında mədəni inteqrasiyanı dərinləşdirəcək və TDT-nin beynəlxalq arenada tanınmasına mühüm töhfə verəcək.

Binəli Yıldırım, həmçinin Qəbələ Zirvəsində imzalanan "TDT Plus" formatının əhəmiyyətinə toxunaraq bildirib ki, bu yeni platforma təşkilatın qlobal əməkdaşlıq imkanlarını və beynəlxalq aləmdə tanınmasını daha da artıracaq: "Bu format mövcud müşahidəçi və tərəfdaş əməkdaşlıq modellərinə nisbətən daha çevik dialoq imkanı yaradır. Bu model sayəsində təşkilatın beynəlxalq təmas dairəsi və diplomatik fəallığı daha da genişlənəcək".

Onun sözlərinə görə, Ağsaqqallar Şurasının təşəbbüsü ilə həyata keçirilən ortaq türk əlifbası və ortaq türk tarixi layihələri də TDT-nin ən mühüm inteqrasiya təşəbbüslərindən biridir: "Bu iki layihə ortaq mədəni irsimizin möhkəmləndirilməsi, Türk dünyasının elmi və mənəvi inteqrasiyasının dərinləşdirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Ortaq mədəni kimliyimizin gələcək nəsillərə ötürülməsi baxımından bu qərarlar tarixi xarakter daşıyır".

B.Yıldırım, həmçinin Qəbələ Zirvə Görüşünün yekun Bəyannaməsində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mühüm bir qərarın qəbul edildiyini diqqətə çatdırıb: "Prezident İlham Əliyevin təklifi ilə üzv dövlətlər və türk əməkdaşlıq təşkilatları 1926-cı ildə Bakıda keçirilmiş Türkoloji Qurultayın 100 illiyinin qeyd olunmasına dəvət



olunub. Bu tədbir türk dilləri üçün ortaq latın qrafikalı əlifbanın qəbuluna doğru ilk addım kimi böyük tarixi əhəmiyyət kəsb edir". O vurğulayıb ki, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurası Türk dünyasında elmi, mədəni və mənəvi birliyin möhkəmləndirilməsində mühüm strateji missiya daşıyır və şuranın fəaliyyəti bu istiqamətdə ardıcıl şəkildə davam etdiriləcək.

Tədbirdə çıxış edən TDT Baş katibinin müavini Ömər Kocaman bildirib ki, Türk Dövlətləri Təşkilatı üzv dövlətlər arasında siyasi və təhlükəsizlik əməkdaşlığını daha yüksək səviyyəyə qaldırmaq istiqamətində ardıcıl addımlar atır. Onun sözlərinə görə, liderlərin sammitlərində, xüsusilə Qəbələ Zirvə Görüşündə regional sülh və təhlükəsizlik məsələləri əsas müzakirə mövzusu olub.

Ö.Kocaman vurğulayıb ki, Zirvə Görüşünün yekun Bəyannaməsində qəbul edilən qərarlar, liderlərin çıxışlarında səsləndirdikləri fikirlər təşkilatın bölgədə sabitliyin və siyasi dialoqun təşviqində getdikcə daha təsirli bir platformaya çevrildiyini göstərir: "TDT artıq iqtisadiyyat, təhsil və mədəniyyət sahələrində deyil, həm də siyasi, strateji və təhlükəsizlik istiqamətlərində fəal fəaliyyət göstərən mühüm regional quruma çevrilir. Qəbələ Bəyannaməsində də vurğulandığı kimi, Türk dövlətləri qlobal dalğalanmalar şəraitində həmrəy şəkildə hərəkət edərək yeni beynəlxalq təhlükəsizlik mühitinə kollektiv duruşla uyğunlaşmaq iradəsini nümayiş etdiriblər". TDT rəsmisi əlavə edib ki, liderlər çoxşaxəli strateji əməkdaşlığın dərinləşdirilməsi və regional sülhün qorunması istiqamətində ortaq məsuliyyətlər götürüblər. Bu çərçivədə Türk dövlətlərinin "Dostluq və Qardaşlıq Müqaviləsi" üzərində işləri sürətləndirmək barədə razılığa gəlmələri xüsusi əhəmiyyət kəsb edir. Sammitdə, həmçinin sülh və təhlükəsizliyi təhdid edən humanitar böhranlar da daxil olmaqla yeni çağırışlar fonunda əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb.

Ömər Kocaman, Azərbaycan Prezidenti İlham Əliyevin 2026-cı ildə terrorla mübarizə və koordinasiyalı təhlükəsizlik fəaliyyətlərinə həsr olunmuş ortaq hərbi təlimlərin keçirilməsi barədə təklifinin üzv dövlətlər tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayıb. Onun sözlərinə görə, Türk Dövlətləri Təşkilatının qarşıdakı mərhələdə əsas məqsədi regionda sülh, sabitlik və təhlükəsizliyin təmininə yönəlmiş ortaq strateji fəaliyyətin dərinləşdirilməsi olacaq.

İclasda, həmçinin Azərbaycan ağsaqqalı Həsən Həsənov, Özbəkistan ağsaqqalı Sodiqjon Turdiev, Qazaxıstan ağsaqqalı İkram Adırbek, Qırğızıstan ağsaqqalı Apas Cumaqulov və Şimali Kipr Türk Respublikasının ağsaqqalı Oktay Öksüzoğlu çıxış ediblər. Tədbirdə türkdilli dövlətlər arasında əməkdaşlığın daha da dərinləşdirilməsi, qarşılıqlı hörmət və həmrəylik prinsipləri əsasında birliyin möhkəmləndirilməsi məsələləri müzakirə olunub. Həmçinin, təşkilatın qarşıdakı dövr üçün fəaliyyət istiqamətləri, eləcə də mədəni, sosial və humanitar sahələrdə birgə layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparılıb. Ağsaqqallar dövlətlər arasında qardaşlıq əlaqələrinin inkişafının Türk dünyasının birliyinin əsas dayağı olduğunu qeyd ediblər.

# Bakı-Tbilisi-Qars regional nəqliyyat habına çevrilir

## Türk dövlətləri dəmir yolundan istifadəni genişləndirmək niyyətindədir

Bu günlərdə Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin dəmiryol idarələri rəhbərlərinin 3-cü iclasında TDT dövlət başçılarının 2024-cü ildə qəbul etdikləri Şuşa Bəyannaməsi və 2025-ci ildə qəbul edilmiş Qəbələ Bəyannaməsindən irəli gələn məsələlər, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə multimodal nəqliyyat daşımalarının inkişafı, dəmir yolu, liman və nəqliyyat-logistika əməliyyatlarının təşviqi və rəqəmsallaşdırılması, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin imkanlarından istifadənin genişləndirilməsi, eləcə də Zəngəzur dəhlizinin potensialı kimi məsələlər müzakirə edilib.

### BTQ-nin Zəngəzur dəhlizinə inteqrasiyası gerçəkləşir

Son illərdə türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm verən Azərbaycan nəqliyyat-liman infrastrukturlarının müasirləşməsinə böyük həcmdə sərmayə qoyub. Açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməklə, region ölkələrinin, o cümlədən türk regionu coğrafiyasının logistikalarının açıq qapısı hesab olunur. Orta Dəhlizin ən axıcı hissəsinə çevrilən Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşıma qabiliyyətinin həcmi 5 milyon tona çatdırılıb, bu nəhəng tranzit qovşağının gücünün 2 dəfə artırılması nəzərdə tutulur. Zəngəzur dəhlizi də artıq "Bir kəmər, bir yol" layihəsinin tərkib hissəsi olan Orta Dəhlizin ayrılmaz qolu hesab edilir ki, bu da BTQ və bu nəqliyat blokuna inteqrasiya olunmuş infrastrukturlar vasitəsilə TDT-nin daşınmalarda qlobal payını daha da artıracaq.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan, həm də türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı Gəmiqayırma Zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq. Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir. Bütün bu potensial arxitektura TDT dövlətlərinin ortaq logistika habı olan Orta Dəhlzidə daha sıx inteqrasiyasını dərinləşdirir. Dəhlizlə aparılan daşınmalar isə dayanmadan artır, rekord göstəricilərə yaxınlaşır. Bütün bunlar BTQ-nin flaqman polad magistral kimi yeni nəqliyyat bağlantılarındakı əlaqələndirici rolunu və əhəmiyyətini əks etdirir.

### Qars-İğdır-Naxçıvan dəmir yolu türk dünyasının körpüsü olacaq

BTQ-nin türk dövlətləri üçün digər mühüm qolu Qars-İğdır-Naxçıvan dəmiryolu xəttidir. Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti (Qars-İğdır-Naxçıvan) Prezident İlham Əliyevin irəli sürdüyü növbəti beynəlxalq əhəmiyyətli iqtisadi layihə olmaqla, Zəngəzur dəhlizinin tərkib hissəsi hesab edilir. Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan yeni xəttin gerçəkləşməsi üçün 2020-ci ildə Azərbaycan və Türkiyə arasında Anlaşma Memorandumu imzalanıb. 2023-cü il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentləri dəmir yolu layihəsinə dair Niyyət Protokolunu imzaladıqdan sonra layihənin reallaşdırılması istiqamətində əsaslı hüquqi bünövrə qoyulub. Hazırda uzunluğu 224 kilometr, 5 stansiyadan ibarət olacaq Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin çəkilişi tamamlanmağa yaxındır və sözügedən dəmiryolu xətti Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Qars-İğdır-Naxçıvan Orta Dəhlizə daxil olan digər trans-nəqliyyat layihələrinin də vacib qovşağı olmaqla təkcə Türkiyə və Naxçıvanı, Azərbaycanı birləşdirməyəcək, bütün türk dövlətlərini əhatə etməklə Avropa ilə Asiyanın ticarət körpüsünün bir hissəsini təşkil edəcək.




### TDT-nin "Rəqəmsal İpək Yolu" və "Digital Hub"u

Tədbirdə TDT-yə üzv dövlətlər tarif siyasəti və sərhəd-keçid məntəqələrinin buraxıcılıq qabiliyyətinin artırılması barədə məsələyə toxunublar ki, bu da dəmir yolu infrastrukturunun rəqəmsallaşması yönündə zəruri addımların atılmasını ehtiva edir. İştirakçılar, həmçinin nəqliyyat əməliyyatlarının səmərəliliyinin artırılması və TDT regionu daxilində tranzit marşrutlarının rəqabətqabiliyyətinin təmin olunması üçün əlaqələndirilmiş tədbirlərin görülməsinin və region boyunca dayanıqlı və fasiləsiz nəqliyyat zəncirlərinin yaradılmasının zəruriliyini vurğulayıblar.

Bu prioritetlərə çatmaq üçün türk dövlətləri müasir rəqəmsal texnologiyaların və kommunikasiya bağlantılarının yaradılmasına nail olmaq niyyətindədir. Bu məqsədlə çoxşaxəli "Rəqəmsal İpək Yolu" layihəsi hazırlanıb. Həmin layihə müasir dünyada ən innovativ platformalardan biri olan "Digital Hub"u formalaşdırmaqla türk dövlətlərinin rəqəmsal iqtisadiyyat blokunda sıx birləşməsinə əlverişli imkanlar yaradacaq.

Yeri gəlmişkən, 2024-cü ilin iyul ayında Şuşada imzalanmış Qarabağ Bəyannaməsinin əsas bəndlərindən biri türk ölkələrinin elektron və rəqəmsal ticarət sistemlərinin vahid platformada birləşdirilməsidir. Bu məqsədlə türk dövlətləri qarşıdan gələn illərdə ticarət həcmini həqiqi potensiala çatdırmaq üçün ticarətdə texniki maneələrin aradan qaldırılmasını və Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişinin (DEPA) tələblərinə uyğun olaraq güzəştli rejimlərin tətbiqini əsas həll yollarından biri hesab edirlər. Qarabağ Bəyannaməsində bununla bağlı bənddə DEPA üzrə səmərələşdirici təkliflərin hazırlanması və yaxın müddətdə tamamlanması nəzərdə tutulub. TDT ölkələri arasında rəqəmsal infrastrukturların vahid məkanda birləşdirilməsi isə Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin də formalaşmasını təmin edəcək.

### Türk dövlətlərinin vahid nəqliyyat-logistika zənciri qurulur

Ümumilikdə, türk dövlətləri öz iqtisadi güc və potensiallarını vahid nəqliyyat-logistika zəncirində birləşdirməklə regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında rolunu artırmaq niyyətindədir. Həmin hədəf xətlərindən biri qardaş ölkələr arasında kommunikasiya əlaqələrinin yeni modellərinin və müasir rəqəmsal inkişaf formatlarının yaradılmasıdır. "Rəqəmsal İpək Yolu" adlanan bu layihənin məramı Türk dövlətlərini dünyada ən innovativ iqtisadi platformalardan biri olan "Digital Hub" ətrafında sıx birləşdirməkdir. Müəyyən edilmiş strategiyaya əsasən, Xəzərin dibi ilə Trans-Xəzər fiberoptik kabel xəttinin çəkilişinin 2026-cı ilə qədər tam başa çatdırılması nəzərdə tutulub. Beləliklə, "Rəqəmsal İpək Yolu" layihəsi Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya əlaqələrinin əsas mərkəzinə çevriləcək. Nəticədə bu bağlantıların bir zəncirdən idarə olunması böyük bir coğrafiyada iqtisadi-ticari potensialın yaranmasına və rəqabətliliyin daha da güclənməsinə səbəb olacaq, türk respublikalarının dünya iqtisadiyyatına inteqrasiyasını dərinləşdirəcək.

*E.CƏFƏRLİ*



# Zəngəzur dəhlizini kim inşa edəcək?

Ermənistanın 2026-cı il dövlət büdcəsi layihəsində Yerasx qəsəbəsindən Azərbaycan sərhədinə (Naxçıvan Muxtar Respublikasına - red.) qədər uzanan dəmiryolu xəttinin təmirinə maliyyənin ayrılması nəzərdə tutulmayıb. Bu barədə Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri David Xudatyan parlament komissiyalarının iclasında nazirliyin büdcə təkliflərini təqdim edərkən bildirib.

O qeyd edib ki, regionda nəqliyyat yollarının mümkün açılması üçün dəmir yolu infrastrukturunun hazırlanmasının maliyyələşdirilməsi nəzərdə tutulmayıb. D.Xudatyanın sözlərinə görə, Meğri regionunda infrastrukturun idarə olunması üzrə ABŞ ilə əməkdaşlığın əlaqələndirilməsinə dair məsələlər baş nazirin müavini Mqer Qriqoryanın aparatının səlahiyyətinə daxildir.

### Ermənistandan tez-tez siyasi bəyanatlar eşidilsə də ...

Kommunikasiyaların açılması Azərbaycanla Ermənistan arasında etimad quruculuğunun möhkəmlənməsinə, yekun sülh sazişinin daha tez imzalanmasına müsbət təsir göstərəcək çox mühüm amil ola bilər. Bundan ötrü tərəflər cari il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalara sadiqliklərini nümayiş etdirməklə praktiki müstəvidə cəsarətli addımlar atmalı və niyyətlərini konkret qərarlarla, layihələrin icrası ilə təsdiqləməlidirlər. Ermənistan tərəfindən kommunikasiyaların açılması ilə bağlı siyasi bəyanatlar teztez eşidilsə də, praktiki müstəvidə hər hansı bir iş görülmür. Ermənistandan gələn bəyanatlardan aydın olur ki, rəsmi İrəvan sözügedən marşrutun yaradılmasına investisiya yönəltmək barədə ümumiyyətlə düşünmür.

Maliyyələşdirilmə məsələsi də Baş nazirin müavini Mqer Qriqoryanın səlahiyyətlərinə aid olan iş deyil. İndiyədək onun verdiyi açıqlamalarda bu barədə heç nə deyilməyib. Vaşinqton razılaşmalarından sonra onun müəyyən çalışmaları barədə məlumatlar yayılıb. Məsələn, 2025-ci il sentyabrın 5-də Mqer Qriqoryanın və Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyətlərinin iki ölkənin ərazilərinə qarşılıqlı səfərləri baş tutub. Vaşinqtonda əldə olunmuş razılaşmalara uyğun olaraq, tərəflər sərhəd xəttinin müvafiq sahələrinin/seqmentlərinin delimitasiyası və mina təmizlənməsi ilə bağlı məsələləri, həmçinin zəruri infrastrukturun bərpası və tikintisi və onların icra müddətləri ilə bağlı məsələləri kommunikasiya quruculuğu sahəsində fəaliyyətlərin sinxronlaşdırılması məqsədilə müzakirə ediblər.

Mqer Qriqoryan kimi, Ermənistanın digər rəsmilərinin çalışmalarında da bəhs olunan marşrutun yaradılmasında bu ölkənin öhdəliklərinə hər hansı bir istinad edilmir. Aydın olur ki, Ermənistan tərəfi yeni bağlantının reallaşdırılmasını daha çox ABŞ-ın öhdəliyi kimi qəbul edir. Xarici işlər naziri Ararat Mirzoyan parlamentdə açıqlamasında bildirib ki, Ermənistan və ABŞ arasında "Tramp marşrutu"nun həyata keçirilməsi və müxtəlif texniki məsələlərin yerində həlli üçün zəruri olan şirkətin yaradılması ilə bağlı danışıqlar başlayıb və aktiv mərhələdədir. Lakin bu qərarlar nə olursa olsun, hər şey Ermənistanın ərazi bütövlüyü və yurisdiksiyası çərçivəsində həyata keçiriləcək.

Göründüyü kimi, Ararat Mirzoyan da Ermənistanın Baş naziri Nikol Paşinyanın ritorikasını təkrarlayır və diqqəti ərazi bütövlüyü, suverenlik məsələlərinə yönəltməyə çalışır. İndi tərəflər elə bir mərhələyə yaxınlaşıblar ki, konkret məsələlər həllini tapmalıdır. Axı ərazi bütövlüyü, suverenlik kimi siyasi məsələlər ətrafında Vaşinqtonda Donald Trampın şahidliyi ilə konsensusa gəlinib və bu barədə mövqelər aydındır. Başqa sözlə desək, Azərbaycandan Ermənistana qarşı hər hansı bir təhdid jestləri edilmir. Belə olan halda Baş nazir və digər müxtəlif səviyyələrdə eyni fikirlərin təkrarlanmasına nə ehtiyac var?

Beləliklə, o qənaət hasil olur ki, Ermənistan yeni bağlantının yaradılmasında yalnız siyasi nöqteyi-nəzərdən iştirak etmək və sonradan marşrutun istismarından gəlir götürmək niyyətindədir. Halbuki infrastrukturun yaradılmasına Ermənistan da öz töhfəsini verməlidir.

### Vaşinqton razılaşması və Azərbaycanın məsuliyyəti

Regionda kommunikasiyaların blokdan çıxarılması ilə bağlı Azərbaycanın lap əvvəldən ortaya qoyduğu və əsaslandırdığı mövqe Vaşinqton görüşündə də nəzərə alınıb. Zəngəzur dəhlizinin (TRIPP marşrutunun ) önəmi eyni zamanda hazırkı geosiyasi amillərlə şərtlənir. Son illərdə Rusiya-Ukrayna müharibəsi səbəbindən Şimal marşrutlarının funksionallığı əhəmiyyətli dərəcədə azalıb. Belə bir şəraitdə Orta Dəhliz Avrasiyada ən etibarlı və təhlükəsiz marşrut kimi diqqət çəkir. Transxəzər marşrutu ilə Çindən, Mərkəzi Asiya ölkələrindən yükləri Xəzər dənizindən, Azərbaycan və Türkiyə üzərindən keçirməklə Avropa bazarlarına təhlükəsiz və daha qısa müddətdə çatdırmaq mümkündür. Azərbaycanın strateji baxışına görə Zəngəzur dəhlizi (TRIPP marşrutu) Orta Dəhlizin bir qolu kimi inkişaf etdiriləcək. Hazırda Orta Dəhlizin Gürcüstandan keçən seqmenti aktivdir. Zəngəzur dəhlizinin (TRIPP marşrutunun ) yaradılması ilə Avrasiya coğrafiyasında tranzit imkanları genişlənəcək. Bütövlükdə, yeni marşrut optimal regional bağlantını təmin edəcək.

Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılmasına qətiyyətli siyasi iradə göstərən Azərbaycan Vaşinqton razılaşmalarına sadiqliyini nümayiş etdirir. Xəbər verildiyi kimi, ölkəmiz üzərindən Ermənistana tranzit daşımalarına qoyulan məhdudiyyətlər aradan qaldırılıb. Artıq Azərbaycanın hava məkanından istifadə edilməklə Ermənistana Qazaxıstan taxılının daşınmasına start verilib. Respublikamız etimad quruculuğunu möhkəmləmək üçün bu qəbildən olan tədbirlərin miqyasını genişləndirmək niyyətindədir. Eyni zamanda, ölkəmizin ərazisində Zəngəzur dəhlizinin fəaliyyəti üçün zəruri olan infrastrukturun yaradılması üzrə işlər yekunlaşmaq üzrədir. Bu sahədə böyük təcrübəsi olan Azərbaycan şirkətləri yeni nəqliyyat bağlantısının Ermənistan seqmentinin inşasında da iştirak edə bilərlər.

*Mübariz FEYİZLİ*

# Avropa təhlükəsizliyini niyə Türkiyəyə etibar etmir?

## Ankarasız təhlükəsizlik arxitekturası mümkünsüzdür - Qərb reallığı qəbul etməlidir

Son illərdə Türkiyənin beynəlxalq müstəvidə qazandığı siyasi, iqtisadi və hərbi nüfuz onu təkcə regional deyil, qlobal təhlükəsizlik arxitekturasının mühüm oyunçusuna çevirib. Artıq rəsmi Ankara yalnız Yaxın və Orta Şərqdə deyil, bütövlükdə Avrasiya məkanında əsas geosiyasi güc mərkəzlərindən biri kimi qəbul olunur. Həm NATO-nun aparıcı üzvü, həm Qara dəniz regionunun sabitlik dayağı, həm də Cənubi Qafqazda Azərbaycanın strateji müttəfiqi kimi Ankara qlobal təhlükəsizlik arxitekturasının ayrılmaz hissəsi kimi çıxış edir. Türkiyə həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan güclənərək beynəlxalq münasibətlər sistemində özünəməxsus çəkisini artırıb.

Lakin paradoks ondadır ki, NATO-nun ən böyük ordularından birinə sahib olan Türkiyə yenə də Avropa məkanı tərəfindən manipulyasiyaya uğradılır - maraqlıdır ki, Avropa İttifaqı (Aİ) bir tərəfdən qlobal güc iddiasında çıxış edir, digər tərəfdən öz təhlükəsizlik sistemini yeniləyərkən kontingentin ən böyük hərbi potensiallarından birinə malik Türkiyəni prosesdən kənarda saxlamağa çalışır.

### Avropa Ankaranı niyə “gecikdirir”...

Belə ki, Avropa Komissiyası Türkiyənin SAFE (Security and Defence Fund for Europe) müdafiə təşəbbüsünə qoşulmaq üçün müraciəti ilə bağlı hələlik heç bir qərarın olmadığını bildirib. Bu barədə “Report”un Avropa bürosunun sualına cavab olaraq Avropa İttifaqının (Aİ) rəsmi nümayəndəsi Toma Renye bildirib. O qeyd edib ki, Ankaranın mümkün iştirakı ilə bağlı hələlik heç bir danışıq aparılmır: “Danışıqlara başlamaq üçün Avropa Komissiyası əvvəlcə tövsiyə hazırlamalıdır. Bu tövsiyə Aİ Şurası tərəfindən nəzərdən keçirildikdən və mandat alındıqdan sonra danışıqlardan söhbət gedə bilər”.

Brifinqdə jurnalistlər Aİ-nin ən böyük iqtisadiyyatına malik olan, Ankara ilə müdafiə və sənaye sahəsində daha sıx əməkdaşlığın əsas tərəfdarı olan Almaniyanın təşəbbüsə açıq dəstəyi nəzərə alındıqda vəziyyətin çaşdırıcı olduğunu qeyd ediblər. Qeyd edək ki, daha əvvəl Almaniya kansleri Fridrix Merts Ankaraya səfəri zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ölkənin SAFE-də iştirak perspektivlərini və digər müdafiə tərəfdaşlığı məsələlərini müzakirə edib. Mətbuatın xəbərlərinə görə, Berlin Avropanın cənub-şərq cinahında artan təhdidlər fonunda proqramın “Aİ xaricindəki etibarlı tərəfdaşları” əhatə etmək üçün genişləndirilməsinin tərəfdarıdır. “Türkiyə bizə aid olan bütün xarici siyasət və təhlükəsizlik məsələlərində olduqca vacib oyunçudur. Almanlar və avropalılar olaraq, (digər ölkələrlə) strateji tərəfdaşlığımızı dərinləşdirməliyik və Türkiyə bundan kənarda qala bilməz”, - Merts bildirib.

Öz növbəsində, Türkiyə lideri qeyd edib ki, Avropada təhlükəsizliyin dəyişən şərtləri fonunda müdafiə məhsullarının alınması ilə bağlı problemləri keçmişdə qoyub birgə layihələrə diqqət yetirmək lazımdır.

AK nümayəndəsi isə fikrini belə ifadə edib ki, “biz demirik ki, Türkiyə vacib tərəfdaş deyil və ya onun əhəmiyyətli müdafiə imkanları yoxdur. Lakin SAFE nisbətən yeni bir vasitədir və üzv dövlətlər yalnız bu yaxınlarda ilkin ayırmalar alıblar”. Avropa Komissiyasının yüksək vəzifəli rəsmisi “Report”a qeyri-rəsmi şərhində qeyd edib ki, məsələnin mürəkkəbliyi Aİ dövlətlərinin əsasən NATO çərçivəsində Ankara ilə tərəfdaşlıq etməsinə baxmayaraq, fərqli, hətta kardinal ziddiyyətli mövqeləri ilə bağlıdır.

“Almaniya Türkiyənin iştirakını qeyd-şərtsiz dəstəkləsə də, Fransa buna qarşıdır və bu, onu etibarsız müttəfiq hesab etdiyi və ya hərbi-sənaye potensialına inamsız olduğu üçün deyil. Məsələ ondadır ki, bu halda Fransa 150 milyard avroluq “pirojna”dan kiçik pay alacaq. Kipr və Yunanıstan Türkiyənin Rusiya ilə yaxın əlaqələri kimi digər arqumentlərə istinad edirlər. Lakin əsas arqumentin siyasi olduğu aydındır; onlar qonşularına kökündən qarşıdırlar”, - rəsmi qeyd edib.

### Müstəqil siyasət: Avropanın qorxusu...

Qeyd edək ki, Avropanın Türkiyəyə qarşı “ehtiyatlı davranışı” ilk hal deyil - Aİ üzvlüyü ilə bağlı proses buna misaldır. “Köhnə qitə”nin birinci və ən mühüm “hürküsü” isə Ankaranın müstəqil siyasi xətt yürütməsidir. Türkiyə bu gün heç bir qlobal mərkəzin təlimatları ilə hərəkət etmir, öz milli maraqlarına əsaslanan çoxvektorlu siyasət yürüdür. Misal ortadadır: Rusiya-Ukrayna müharibəsi. Müharibə başladıqda Qərb ölkələri vahid cəbhə kimi Ukraynaya maliyyə və silah yardımı axıtdı, Rusiyaya qarşı misli görünməmiş sanksiyalar tətbiq etdi. Türkiyə isə fərqli yol seçdi. O, nə Ukraynanı silahla təmin etdi, nə də Rusiyanı müdafiə etdi. Ankara balanslı siyasət apararaq həm Kiyevlə, həm Moskva ilə diplomatik əlaqələri qorudu. Bu siyasətin nəticəsində Türkiyə müharibənin dayandırılması üçün yeganə real vasitəçiyə çevrildi. BMT-nin Baş katibi Antoniu Quterreşin “bu müharibəni dayandıra biləcək yeganə ölkə Türkiyədir” deməsi də təsadüfi deyildi.

Ankara Rusiya və Ukrayna arasında “Taxıl dəhlizi” sazişinin imzalanmasına nail olaraq milyonlarla ton ərzağın dünya bazarına çıxarılmasına şərait yaratdı. Bu, bir tərəfdən humanitar böhranın qarşısını aldı, digər tərəfdən Türkiyənin beynəlxalq diplomatiyada etibarlı tərəfdaş imicini daha da gücləndirdi.

Avropa isə bu prosesdə öz rolunu tam itirdi. Bu səbəbdən Brüssel anlayır ki, Türkiyə nə Brüsselin, nə də digər qütb və ya paytaxtların göstərişi ilə hərəkət etmir. Məhz bu müstəqillik Avropanı narahat edir. Çünki Avropa İttifaqı təhlükəsizlik sistemində “idarə olunan tərəfdaşlar” istəyir, amma Türkiyə belə deyil.



### NATO və Avropa arasında gərginlik: Türkiyə faktoru gözardı edilə bilməz

Yuxarıda da qeyd olunduğu kimi, Türkiyənin bu sistemdə yer alması Avropada birmənalı qərar deyil - Avropanın “liderliyi” uğrunda mübarizə aparan Fransa yenə də özünün “ənənələrindən” əl çəkmir. Yeri gəlmişkən, məhz Fransanın nümunəsində hazırda Avropa ilə ABŞ arasında müəyyən siyasi və hərbi ziddiyyətlər açıq şəkildə müşahidə olunur. Bu ziddiyyətlərin mərkəzində NATO-nun maliyyələşdirilməsi və müdafiə məsuliyyəti məsələsi dayanır - qeyd edək ki, Almaniya NATO-nun maliyyələşdirilməsi mexanizmində ÜDM-in 5 faizi nisbəti öhdəliyini yerinə yetirir.

Bəli, ABŞ uzun illərdir Avropanı müdafiə xərclərinə kifayət qədər töhfə verməməkdə ittiham edir. Prezident Donald Tramp açıq şəkildə bəyan etmişdi ki, “Avropa öz təhlükəsizliyi üçün daha çox pul ödəməlidir”. Bu açıqlamalardan sonra “müstəqil Avropa ordusu” ideyası yenidən gündəmə gəldi.

Amma reallıq budur ki, Avropa bu ordunu Türkiyəsiz formalaşdıra bilməz. NATO daxilində ABŞ-dan sonra ən böyük orduya malik ölkə Türkiyədir. Hərbi qüvvələrinin sayı, texniki təchizatı, əməliyyat təcrübəsi və regiondakı təsir dairəsinə görə Türkiyə NATO-nun sütunlarından biridir. Buna baxmayaraq, Brüssel Türkiyənin Avropanın müdafiə sistemində aparıcı rol almasını istəmir. Səbəb sadədir: Türkiyə Qərbin siyasi kontrolunda deyil.

Son illərdə Türkiyə müdafiə sənayesində inqilabi sıçrayış edib. “Bayraktar TB2”, “Akıncı”, “Kızılelma”, “Anka”, “Altay” tankı, “Hisar” zenit sistemi, “Atmaca” raketi kimi texnologiyalar sayəsində Ankara xarici silah asılılığını minimuma endirib - qarşılığında dünyanın ən yeni nizamında ən böyük silah ixracatçılarından birinə çevrilməyi belə planlaşdırır. Türkiyənin dronları Qərbi Afrikadan Şərqi Avropayadək bir çox münaqişə zonalarında öz effektivliyini sübut edib. Avropa üçün bu, həm iqtisadi, həm də siyasi təhlükədir. Çünki Türkiyə bu uğurlarla Qərb silah sənayesinə alternativ yaradır. Avropa bu potensialın bir gün Aİ-nin daxili hərbi balansını dəyişə biləcəyindən ehtiyat edir.

### Avropa yeni geosiyasi mərkəzdən çəkinir: Türk Dövlətləri Təşkilatı

Bu məsələdə paralel olaraq yeni nizamda Türkiyənin yeri mövzusu da əsaslı rol oynayır. Belə ki, Türkiyənin yaxından iştirakı ilə formalaşan və ildən-ilə güclənən Türk Dövlətləri Təşkilatı (TDT) qlobal geosiyasətdə yeni güc mərkəzi kimi tanınır. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkiyə arasında əməkdaşlıq formatı son illərdə təkcə mədəni deyil, həm də siyasi-iqtisadi və təhlükəsizlik istiqamətində strukturlaşdırılır. Son Qəbələ Zirvə görüşü TDT-nin konsolidasiya olunmuş şəkildə fəaliyyətini göstərdi. Müzakirələrdə ortaq təhlükəsizlik mexanizmlərinin, müdafiə əməkdaşlığının və nəqliyyat şəbəkələrinin koordinasiyasının gündəmə gəlməsi bu qurumu gələcəyin strateji alyansına çevirir. TDT coğrafi baxımdan Çinlə Avropa arasında yerləşən və enerji, logistika, ərzaq marşrutlarının təhlükəsizliyinə cavabdehlik daşıyan ölkələri birləşdirir. Zəngəzur dəhlizindən (TRİPP) keçməklə “Orta Dəhliz” - yəni Çin-Mərkəzi Asiya-Xəzər-Cənubi Qafqaz-Türkiyə-Avropa marşrutu qlobal ticarətin yeni arteriyasıdır. Bu dəhlizin təhlükəsizliyində Türkiyə və Azərbaycan əsas rol oynayır.

Bu vəziyyət Avropanın maraqları ilə üst-üstə düşmür. Çünki Avropa uzun illərdir enerji və logistika axınlarının nəzarətini öz əlində saxlamağa çalışırdı. İndi isə yeni ticarət xətti Avropadan kənarda - Türk coğrafiyasında formalaşır. Bu, təkcə iqtisadi deyil, həm də geosiyasi çəkini dəyişdirən faktordur. Məhz bu səbəbdən Brüssel TDT-nin güclənməsini yaxından izləyir, amma açıq dəstək göstərmir. Avropa anlayır ki, bu platforma yaxın gələcəkdə Avrasiya məkanında yeni təhlükəsizlik sisteminin əsasını qoya bilər - özü də Aİ-nin iştirakı olmadan.

### Praqmatik dönüş - Berlindən Ankaraya...

Avropada Türkiyənin əhəmiyyətini dərk edən nadir ölkələrdən biri Almaniyadır. Berlin ənənəvi olaraq Türkiyəyə münasibətdə daha praqmatik və realist siyasət yürüdür. Kansler Mertzin Ankaraya səfəri, vurğuladığı məqamlar son illərdə bu münasibətlərin strateji səviyyəyə qaldırıldığını göstərir. Almaniya baş naziri ilə Türkiyə Prezidentinin görüşündə Rəcəb Tayyib Ərdoğan birgə müdafiə laiyhələrinə toxunaraq bildirmişdi ki, Avropada dəyişən təhlükəsizlik şəraiti nəzərə alınmaqla, müdafiə sənayesi məhsullarının tədarükündəki keçmiş çətinlikləri geridə qoyub birgə layihələrə diqqət yetirməliyik: “Almaniyanın bu sahədə son zamanlar atdığı müsbət addımları, məsələn, “Eurofighter” təyyarələrinin tədarükünü alqışlayırıq”.

Mertz isə Türkiyənin 20 ədəd Eruofighter almaq qərarından məmnunluğunu ifadə edib: “Biz Türkiyəni AB-də görmək istəyirik və istəyirik ki, bu yolda davam etsin. Kopenhagen meyarlarını şərt kimi qeyd etdik... Münasibətlərimizi inkişaf etdirməkdə qərarlıyıq”.

Bəlli olduğu kimi, illərdir Almaniya üçün miqrasiya böhranının idarə olunmasında da Türkiyə əvəzolunmaz tərəfdaşdır. Milyonlarla suriyalı və digər qaçqınlara Türkiyə ərazisində sığınacaq verilməsi Avropaya kütləvi axının qarşısını aldı. Ankara ilə Berlin arasında enerji və sənaye əməkdaşlığı da son illərdə genişlənib. Türkiyə Avropanın enerji şəbəkəsində tranzit mərkəzə çevrilir. TANAP və digər layihələr Avropanın enerji təhlükəsizliyində həlledici rola malikdir. Bu reallığı Almaniya anlayır, amma bütün Avropa miqyasında bu yanaşma hələ dominant deyil. Fransa və bəzi digər ölkələr Türkiyənin bu qədər güclənməsini “Avropanın liderliyinə təhdid” kimi görürlər.

### Avropanın Türkiyəyə ehtiyacı var

Göründüyü kimi, artıq qlobal mühitdə təhlükəsizlik anlayışı köklü şəkildə dəyişib - bu, tək hərbi məsələlərdən ibarət deyil. Enerji, ərzaq, su, miqrasiya, ticarət və kommunikasiya təhlükəsizliyi kimi anlayışlar da bu sistemin ayrılmaz hissəsinə çevrilib. Türkiyə bu sahələrin hər birində beynəlxalq statuslu əsas oyunçulardan sayılır. Ankara həm NATO-nun regiondakı dayağı, həm Türk dünyasının lideri, həm də enerji və logistika mərkəzidir.

Avropa isə hələ də keçmişin siyasətini davam etdirir - yəni “öz daxilində birləş, kənarı nəzarətdə saxla”. Amma artıq “kənar” deyilən coğrafiya - Türkiyə, Azərbaycan, Orta Asiya - yeni mərkəzə çevrilib. Bu gün Avropa Türkiyəsiz nə enerji, nə diplomatiya, nə də təhlükəsizlik baxımından sabit ola bilər. Ankara nə Qərbin “forpostu”, nə də Şərqin “peyki”dir. Bu dövlət özünün müstəqil siyasi yolunu seçib - milli maraqlarına, iqtisadi gücünə və hərbi potensialına əsaslanan müstəqil xətt yürüdür. Avropa bunu qəbul etməsə də, reallıq dəyişməz qalır: Türkiyənin Avropaya ehtiyacı yoxdur, amma Avropanın Türkiyəyə var. Və bu reallığı görməyən Avropanı gələcəyin təhlükəsizlik arxitekturasında geri salacaq...

*Pərviz SADAYOĞLU*

Bizim müsahib

# BİR ADDIMDA SƏNƏT, BİR ADDIMDA AİLƏ MİRASI



Bugünkü müsahibimiz beynəlxalq müsabiqələrin laureatı, xoreoqraf, "Gülüstan" rəqs ansamblının bədii rəhbəri Lenay Seidəli-zadə ilə həm yaradıcılıq barədə, həm də ailəsinin sənət irsi, pərdəarxası xatirələri və səhnə duyğuları barədə söhbət edəcəyik.

**- Lenay xanım, Azərbaycan rəqs sənətini necə təbliğ edirsiniz. Çətinliklər olurmu?**

- Azərbaycan rəqs sənətinin inkişafı mənim üçün sadəcə bir peşə deyil, həm də bir həyat missiyasıdır. Fəaliyyətimdə məqsədim bu zəngin mədəni irsi qoruyub saxlamaq, onu yeni nəsillərə ötürmək və eyni zamanda müasir tamaşaçılara daha yaxın etməkdir. Gənclərlə fəal şəkildə işləyirəm, onları ənənəvi rəqslərə öyrədirəm, eyni zamanda böyüklər üçün də ustad dərsləri təşkil edirəm və folklor ilə müasiri birləşdirən layihələr yaradıram. Mənim üçün hər bir hərəkət, hər bir obraz xalqımızın ruhunu, tarixini və mədəniyyətini əks etdirməlidir.

Bu sənətdə əsas çətinlik odur ki, cəmiyyətimizdə əksəriyyət insanlarda Azərbaycan milli rəqsinin və musiqisinin anlayışı itir, tarixi bilmək və öyrənmək tələbatı o qədər də çox deyil. Amma bu düzələn işdir, bu sahədə peşəkar çalışanlarda istək və məqsəd varsa..

**- Digər ölkələrdə necə, Azərbaycan milli rəqslərinə diqqət varmı?**

- Əlbəttə, hətta böyük bir maraq var. Azərbaycan xalq rəqslərinin digər ölkələrdə təbliği çox uğurla həyata keçirilir. Bir neçə ildir ki, müəllifi olduğum "Rəqs Emalatxanası" adlı layihə çərçivəsində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizlə fəal şəkildə işləyirəm. Məqsəd uzaqda yaşayan həmvətənlərimizə mədəniyyətimizi, tariximizi və folklorumuzu tanıtmaqdır. Əməkdaşlıq etdiyimiz mərkəzlər arasında Praqadakı Azərbaycan Mədəniyyət Evi, Misirdəki Azərbaycan Mədəniyyət Evi, ABŞ, Avstraliya, Yaponiya, Rusiya və digər şəhərlərdə yaşayan diasporlar var.

Bundan başqa, mənim çoxlu sayda xarici tələbələrim var ki, onlar Azərbaycan xalq rəqsinə vurğunluqla yanaşır və onu düzgün öyrənmək istəyirlər. Bu, mənim üçün böyük qürur və sevinc mənbəyidir.

**- Həm də hüquqşünassınız, incəsənət və hüquq bir-birinə yad mövzulardır. Çətin gəlmir sizə?**

- Əgər bu iki sənətdən hansısa biri olmasaydı, həyatım bu qədər maraqlı və tam olmazdı. Artıq ortaq bir nöqtəni tapmışam. Bəzən insanlar mənə bir sənəti seçməli olacağımı deyirlər. Lakin mənim üçün hər iki sənətdə eyni anda olmaq daha çox hüzurvericidir. Hüquq sahəsi üzrə tez-tez dünyanın fərqli ölkələrində təlimlərdə və konfranslarda iştirak edirəm. 2022-ci ildə Vyanada İlk Nüvə Hüququ üzrə Beynəlxalq konfransda iştirak üçün yeganə azərbaycanlı olaraq qrant qazandım.

**- Bu il "Nəsimi festivalı"n iştirakçısısınız...**

- Nəsimi festivalı Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilir və bu il üzv olduğum Səbinə Şixlinskaya mentorluğu ilə "Atəş Hub"ın təqdimatında festival çərçivəsində "Eşq-i Nur" sərgisinin açılışı baş tutdu. İncəsənətin müxtəlif istiqamətləri üzrə iyirmi rəssam əsərlərini bu sərgidə təqdim ediblər.

Mənim üçün böyük şərəfdir ki, dahi Nəsiminin yaradıcılıq və həyat yoluna həsr olunan "Sözün soyundurulması" adlı canlı performansım sərginin açılışında nümayiş olundu və böyük maraqla qarşılandı. Sərginin bağlanış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak etmişdilər, onlar hər bir əsərlə yaxından tanış oldular. Öz əsərimin konsepsiyasını onlarla bölüşüb, müzakirə etmək mənim üçün böyük şərəf oldu.

**- Siz məşhur xoreoqraf və rəqqasə, respublikanın Xalq artisti Roza Cəlilovanın nəvəsisiniz. Bunu eşidəndə insanlar necə reaksiya verirlər?**

- İlk növbədə məsuliyyətlidir. Reaksiyalar da fərqli olur, bəziləri deyir, çox xoşbəxt insansan ki, belə bir sənətkarın nəvəsisən. Bəziləri təəccüblənir ki, mən bunu heç yerdə vurğulamıram, dərhal bildirmirəm. Roza xanımın ilk müəllimim olması ilə bağlı suallar verənlər də olur. Deyərdim ki, nənəm həm mənə, həm də bacım Aslana Əliyevaya qarşı tələbkar bir müəllim olub. Ümumiyyətlə, reaksiyalar müxtəlif olur. Səmimi desəm, Roza xanımın nəvəsi olduğunu çox yerdə açıqlamıram.

**- Səbəb nədir?**

- Mən fəxr edirəm ki, belə bir sənətkarın nəvəsiyəm, lakin yüksək pillələrə qalxmaq üçün heç vaxt onun adından istifadə etmək istəməmişəm. İnsan əgər özündə bir istedad hiss edirsə, bunu kiminsə köməyi ilə yox, öz zəhməti ilə üzə çıxartmalıdır.

**- Roza xanımın hansı xüsusiyyətlərini özünüzdə görürsünüz?**

- Tələbkarlıq, tələbələrə qarşı sərtlik. Mən onun məşqlərində böyümüşəm. Məşqlərə gecikəndə, hazırlıqsız gələndə saçları səliqəsiz yığanda tələbələri dərsə qoymurdu. İstər-istəməz hazırda mən də öz dərslərimdə bütün bu detallara fikir verirəm. Həyata sevgi, sənətə bağlılıq, estetik zövq, həyat barədə müzakirələr həvəsi də nənə ilə orta nöqtəmiz olub...



**- Tanqo sənətinə marağınız necə başladı? Bu seçim təsadüfi oldumu?**

- Hər bir insanın hansısa musiqiyə marağı daha çox olur. Uşaqlıqdan tanqo musiqisinə sevgim olub. Onu da anlayırdım ki, bu, yetkin yaş üçün uyğun rəqsdir. 20 yaşımda artıq həyatımı bu rəqsə bağladım. O vaxtlar cəmiyyətimizdə bu rəqs o qədər də tanınmırdı. Amma indi tanqo cəmiyyətimiz böyüyür. 2019-cu ildə öz "Baku Tango Therapy" adlı tanqo məktəbimi açdım. Əsas məqsəd tanqonu bir rəqs kimi deyil, terapiya növü kimi də tanıtmaqdır.

**- Azərbaycanda rəqs sənətinə yanaşma sizi qane edirmi, yoxsa daha çox dəstək və diqqətə ehtiyac var?**

- Rəqs sənətinə diqqət daha çox olsa, gözəl olar. İncəsənətin bütün sahələri gözəldir, lakin rəqs mənim üçün əvəzolunmazdır. İstənilən bir ölkəyə gedəndə ilk növbədə teatra, milli musiqiyə, milli rəqsə maraq göstərirlər. Ölkəmizdə də bu yöndə ciddi planlar qurulsa, yaxşı olar. Əfsuslar olsun ki, Azərbaycan milli rəqslərin incəliklərini, detallarını düzgün formada cəmiyyətə çatdıran müəllimlərin sayı çox azdır. Bizim kifayət qədər zəngin rəqslərimiz var. Lakin müəllimlər daha çox bayağı rəqsləri öyrədirlər, bu da onların qeyri-peşəkar olduqlarından irəli gəlir.

**- Sosial şəbəkələrin təsiri varmı rəqsin bu formada təbliğinə?**

- Təbii ki var. Sosial şəbəkələrdə azyaşlı qızlar oğlan hərəkətləri ilə mənşəyi bilinməyən musiqilərlə rəqs edir. Uşağın zövqü kiçik yaşlardan korlanır və təsir altına düşür. Burada valideynin də, cəmiyyətin də rolu çox önəmlidir. Düşünürəm ki, bu məsələ kökündən həll olunmalıdır.

**- Səhnədə rəqsləri ifa edərkən yaşadığınız hissləri sözlə necə ifadə edərdiniz?**

- Səhnəyə çıxanda tamam başqa insan oluram. Səhnənin özünəməxsus enerjisi var, hansı ki səni daxilən daha da gücləndirir, qanadlandırır, ilhamlandırır və özünü xoşbəxt hiss edirsən. Və hər zaman çalışmışam ki, bu hissləri tamaşaçıya hiss etdirim.

**- Maraqlıdır, Roza xanımın sizə verdiyi ən yaddaqalan nəsihət nə olub?**

- Uşaqlıqdan nənəmin məşqlərində böyümüşəm. Həmişə diqqətlə baxırdım, necə izah edir, rəqsləri necə qurur, tələbələri ilə nə cür təmas yaradır. Bir müddətdən sonra məni də öz kollektivinə daxil elədi. O məni heç bir tələbəsindən ayırmırdı, bütün tələbələrinə eyni yanaşırdı.

2022-ci ildə diplom işimə hazırlaşarkən 42 nəfərdən ibarət truppa ilə Astor Piazzollanın eyni adlı əsərinə "Mələyin ölümü" tanqo tamaşasını qurdum. Tamaşanın premyerası. Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində baş tutmuş və ölkədə azərbaycanlı xoreoqraf tərəfindən qurulan ilk tanqo tamaşası olmuşdur. İstəyirdim ki, bu tamaşa sıfırdan axıra kimi mən gördüyüm, hiss etdiyim və düşündüyüm kimi olsun. Roza xanım yalnız tamaşanın premyera günündə hər şeyi gördü və çox bəyəndi. Bir sözlə, onun dəstəyini, böyüklüyünü hər zaman hiss eləmişəm.

**- Həyatda məqsədiniz və ən böyük arzunuz nədir?**

- Həyatda məqsədim həm bir sənətkar, həm də bir insan kimi iz qoymaqdır. Peşəkar sahədə arzum Azərbaycan mədəniyyətini, xüsusilə xalq rəqslərimizi dünyada daha geniş tanıtmaq, bu sahədə yeni nəsil ifaçılar və sevərlər yetişdirməkdir. Mənim üçün uğur - təkcə nailiyyətlər yox, həm də sevimli, doğma, məni anlayan insanların yanımda sağlam olması və bir yerdə xoşbəxtlik və mənalı həyat yaşamağım deməkdir.

**Söhbətləşdi: Havar Şəfiyeva**

# İsrail Fələstin dövlətini tanıyacaqmı?

Oktyabrın 13-də Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Yaxın Şərq Sülh Sammitində əldə olunan razılaşmalardan sonra İsrailin Qəzzada uzun sürən müharibəyə münasibətində müəyyən dəyişikliklər müşahidə edilməkdədir. Bu günlərdə ABŞ Prezidenti Donald Tramp İsrailin Baş naziri Binyamin Netanyahunun gələcəkdə Fələstin dövlətini tanımağa razı olacağına inandığını bildirib.

O, bu fikri "CBS News" telekanalına müsahibəsində səsləndirib. Netanyahunu bu məsələyə razı salmağın mümkün olub-olmadığı barədə suala cavabında Tramp İsrail Baş naziri ilə münasibətlərinin "yaxşı" olduğunu vurğulayıb və onu "müharibə dövrünün baş naziri" həmçinin "çox istedadlı insan" adlandırıb. "Mən onunla çox yaxşı işləmişəm. Onu bir az bu və ya digər tərəfə yönləndirməli oldum", - deyə, Tramp əlavə edib.

Xatırladaq ki, indiyədək İsrail Fələstin dövlətinin mövcudluğunu qəbul etmirdi. Xüsusilə Binyamin Netanyahu administrasiyası Fələstin ərazilərinin tamamilə ilhaqı siyasətində israrlı idi. Baş nazir dəfələrlə bildirib ki, Fələstin dövləti olmayacaq, rəsmi qaydada belə bir dövlət qurulmasına razılıq yoxdur. Qəzzada uzun sürən müharibə İsrailin Fələstinlə bağlı planlarında nə qədər ciddi olduğunu bir daha ortaya qoydu. Müharibə Qəzzada son dərəcə kədərli izlər buraxıb. Bölgə viran qalıb, təxminən 70 min insan həyatla vidalaşıb. Burada humanitar böhran yaşanır. Bölgənin evsiz-eşiksiz milyonlarla sakini uzun müddət ən zəruri qida məhsullarından, tibbi xidmətdən məhrum qalıblar. Silahlar isə susmaq bilmirdi. Hətta müxtəlif bəhanələrlə bölgəyə humanitaar yüklərin daxil olmasına da qadağa qoyulmuşdu. Son məqsəd Qəzzanı tamamilə boşaltmaq idi. Hətta bir vaxtlar Qəzza sakinlərinin köçürülməsi ilə bağlı Tramp layihəsi də gündəmə gəlmişdi.

Bəs qısa müddətdə nə baş verdi ki, "müharibə dövrünün baş naziri" mövqeyini dəyişdi? Əlbəttə, bunun Binyamin Netanyahunun siyasi iradəsi ilə baş verdiyini düşünmək sadəlövhlük olardı. Analitiklərin qənaətinə görə, BMT-nin və əksər dünya dövlətlərinin Qəzzada baş verənlərə kəskin münasibət sərgiləmələri Netanyahunun geridönüş etməsinə birbaşa təsir göstərib. Uzun sürən müharibə Qəzzada insan faciələri ilə nəticələnməklə yanaşı, Fələstin dövlətinin tanınmasının yeni mərhələsini də gətirib. Son vaxtlarda bir sıra Qərb dövlətləri o cümlədən Birləşmiş Krallıq, Kanada Avstraliya, Portuqaliya və digər dövlətlər Fələstini rəsmi tanıdıqları barədə bəyanatlar veriblər. BMT Baş Assableyasının Nyu-Yorkda baş tutan iclasında Netanyahu beynəlxalq birliyin sərt təpkisi ilə üz-üzə qaldı. Bundan sonra Misirin Şarm əl-Şeyx şəhərindəYaxın Şərq Sülh Sammiti baş tutdu. Tədbirdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın təşəbbüsü və siyasi iradəsi, həmçinin beynəlxalq birliyin dəstəyi sayəsində sülh razılaşmasının imzalanması Qəzza bölgəsi və bütün Yaxın Şərq coğrafiyası üçün ümid işığı kimi görünür. Qeyd edək ki, atəşkəsin bərpası HƏMAS və İsrail Trampın təklif etdiyi 20 bəndlik sülh planının birinci hissəsini qəbul etdikdən sonra baş tutub. Sənədi Misir Prezidenti Əbdülfəttah əs-Sisi, Qətər əmiri Şeyx Təmim bin Həməd əl Tani, ABŞ Prezidenti Donald Tramp və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan imzalayıblar.

Bütün bunlardan sonra Netanyahunun müharibəni dayandırmaqdan başqa yolu qalmadı. Əks ssenari indiyədək İsrailə hərbi və siyasi dəstək verən ABŞ-ın dövlət başçısı D.Trampın nüfuzuna ciddi xələl gətirə bilərdi ki, bu da Netanyahu üçün arzuedilən deyildi. Əks halda o, Trampın dəstəyi əvəzinə, onun böyük qəzəbini qazana bilərdi.

İndiki mərhələdə əsas vəzifə Qəzzada əldə olunan atəşkəsi uzunmüddətli sülhə çevirmək və tamamilə dağıdılmış regionu bərpa etməkdən ibarətdir. Yer-



lə-yeksan edilmiş Qəzzanın bərpasını sıfırdan həyata keçirmək lazım gələcək. Zəruri infrastruktur qurulmalı, yaşayış evləri tikilməli, iş yerləri yaradılmalıdır. Bunun üçün isə böyük həcmlərdə maliyyə vəsaiti tələb olunur. BMT-nin İnkişaf Proqramının (BMTİP) Fələstin xalqına yardım proqramı üzrə administratorunun xüsusi nümayəndəsi Yako Silliers tələb olunan vəsaitin həcmini açıqlayaraq bildirib: "BMT, Avropa İttifaqı və Dünya Bankı tərəfindən birgə aparılan zərərin və ehtiyacların operativ qiymətləndirilməsinə əsasən, Qəzzanın bərpası üçün təxminən 70 milyard dollar tələb olunacaq".

Beləliklə, görünən odur ki, Netanyahu üçün başqa seçim variantı yoxdur və o, beynəlxalq birliyin, o cümlədən də D.Trampın təzyiqləri qarşısında əvvəllər tutduğu radikal mövqeyindən geri çəkilmək məcburiyyətində qalıb. Elə İsrail üçün də ən doğru seçim budur. Unutmaq olmaz ki, hər bir ölkənin, xalqın xoşbəxtliyi qonşularla qurulan münasibətlərdən asılıdır.

***MÜBARİZ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Təhsil kreditləri...

## Gənclərin gələcəyinə sərmayə!



### 4 ildə 83 mindən çox müraciət olub

Məlumdur ki, təhsil inkişafın, tərəqqinin və cəmiyyətin əsas dayağıdır. Hər bir gəncin keyfiyyətli təhsil alması üçün dövlətin yaratdığı imkanlar içərisində təhsil kreditləri xüsusi əhəmiyyət daşıyır. Bu sistem gənclərə arzuladıqları gələcəyə doğru addımlamaq imkanı yaradır.

### Maddi çətinliklərə son

Uzun illər ərzində bir çox tələbə üçün əsas problem təhsil haqqının ödənilməsi olub. Bu səbəbdən bir çox gənc arzuladığı ixtisasda təhsil almaqdan imtina edib. Lakin Təhsil Tələbə Krediti Fondunun fəaliyyəti bu vəziyyəti köklü şəkildə dəyişib. Artıq tələbələr təhsil haqqını ödəmək üçün ağır yük altına girmir, dövlətin təqdim etdiyi güzəştli və faizsiz kreditlərdən yararlanırlar.

### Kreditlər iki istiqamətdə verilir

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndinin sözlərinə görə, sevindirici haldır ki, təhsil kreditlərinin verilməyə başladığı 2021-ci ildən etibarən ondan yararlanan tələbələrin gender bölgüsündə qızların üstünlük təşkil etdiyini görürük: “Bu hal valideynlərin stereotiplərinin qırıldığının və qız övladlarını ödənişli qəbul olduğu halda təhsilə yönəltmələrinin göstəricisidir.

Təhsil Tələbə Krediti Fondu Azərbaycanda fəaliyyətdə olduğu müddətdə sosial vəziyyəti zəif olan ödənişli əsaslarla oxuyan tələbələrin təhsilinə böyük töhfələr verib. Prezidentin sərəncamı ilə ilk olaraq 80, daha sonra 12 və 18 milyon vəsait ayrıldı. Bu isə iki istiqamət üzrə təşkil olunur. Onlardan biri də sosial sahədir. Burada əhatəliyin artırılması böyük dəyişiklik yaradacaq. Məsələn, hər il ödənişli qəbul olan təxminən iki mindən çox tələbə təhsil ala bilmirdi. Bu fond təsis olunduqdan sonra tələbələrin bilik nailiyyətlərində yüksəliş müşahidə edilir. Çünki təhsilini əla qiymətlərlə bitirənlərə kredit verilir. Həmçinin, bu Azərbaycan gəncinin təhsil almaq hüququnun təmin edilməsi naminə çətinlikləri aradan qaldırır”.

### Maarifləndirmə və inkişaf zərurəti

Ekspertlərin fikrincə, təhsil kreditləri sisteminin daha geniş tanıdılması və şərtlərinin sadələşdirilməsi tələbələr arasında bu imkanlardan istifadə səviyyəsini artıracaq. Bu, həm dövlətin təhsil siyasətinə dəstək, həm də gənclərin öz gələcəklərinə inamını möhkəmləndirən bir addımdır.

### Son 4 ildə təhsil krediti üçün nə qədər müraciət olub?

Təhsil Tələbə Krediti Fondunun fəaliyyətə başladığı gündən (2021-ci il) bu günə qədər quruma 83 min 672 müraciət daxil olub. Həmin müddətdə qeydə alınan müraciətlərdən 67 min 566 müraciət rəsmiləşdirilib.

Rəsmiləşən müraciətlərdən 23 min 467-si sosial, 44 min 99-u isə standart təhsil krediti olub.

Qeyd edək ki, Azərbaycanda tələbələrə təklif olunan təhsil kreditlərindən istifadənin əhatə dairəsi genişləndirilib. Artıq ailə başçısını itirməyə görə əmək pensiyası və sosial müavinət alanlar da Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditləri ala bilirlər.

### Gələcəyə sərmayə

Təhsil krediti yalnız bu günün dəstəyi deyil, sabahın təminatıdır. Təhsilini başa vurmuş gənc öz ixtisası üzrə işləyərək həm dövlətin yaratdığı imkandan yararlanır, həm də borcunu qaytarmaqla bu sistemin davamlılığını təmin edir. Bu mexanizm bir tərəfdən insan kapitalını gücləndirir, digər tərəfdən isə ölkənin iqtisadi və sosial inkişafına töhfə verir.

### Təhsil kreditlərinin verilməsində dünya təcrübəsi

Ekspert qeyd edib ki, tələbələr üçün təhsil kreditlərinin digər üstünlüklərindən biri girov və zaminin tələb olunmamasıdır: “Bu, tələbələr üçün əsas üstünlükdür. Həmçinin kreditlərin geri qaytarılması yalnız təhsil başa çatandan iki il sonra başlanır və 20 ilə qədər müddətə yayılır. Bu, gənclərə müəyyən güzəşt dövrü qazandırır və işə düzəlib maliyyə sabitliyi əldə etdikdən sonra ödəniş etməyə imkan verir.

Dünya təcrübəsinə diqqət yetirdikdə görürük ki, ABŞ-da tələbə kreditləri geniş yayılıb, lakin orada faiz dərəcələrinin yüksəkliyi tələbələrin onilliklərlə borc altında qalmasına səbəb olur. Skandinaviya ölkələrində isə tələbə kreditləri yalnız təhsil haqqını deyil, həm də yaşayış xərclərini əhatə edir və çox aşağı faizlə verilir. Estoniyada tələbələr həm dövlət təqaüdləri, həm də uzunmüddətli faizsiz kreditlərlə dəstəklənir”.

***Yeganə***


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti üzrə hazırlanmışdır**




## İdmançılarımız ötən ay beynəlxalq yarışlarda 329 medal qazanıblar





Gənclər və idman naziri Fərid Qayıbov ötən ay ərzində beynəlxalq yarışlarda yüksək nəticələr əldə etmiş idmançılarla görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan İdman Akademiyasında təşkil olunan görüş Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Nazir beynəlxalq arenalarda qazanılan nailiyyətləri yüksək qiymətləndirib, bu münasibətlə idmançıları və onların məşqçilərini təbrik edib.

F.Qayıbov bildirib ki, oktyabr ayı ərzində Azərbaycanın Dövlət Himni 17 ölkədə səsləndirilib. Ötən ay idmançılarımız ümumilikdə 70 qızıl, 102 gümüş və 157 bürünc medal qazanıblar.

Görüş zamanı ay ərzində beynəlxalq arenalarda qazanılmış nailiyyətləri əks etdirən videoçarx nümayiş olunub.

## Azərbaycanda Avropa Deflimpiya Komitəsinin Baş Assambleyasının keçirilməsi planlaşdırılır

2027-ci ildə Avropa Deflimpiya Komitəsinin Baş Assambleyasının Azərbaycanda keçirilməsi planlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Deflimpiya Komitəsinin baş katibi Namiq Novruzov mətbuat konfransında deyib.

O, komitənin ölkə daxilində də müxtəlif sosial layihələr həyata keçirdiyini bildirib: “Məqsəd eşitmə məhdudiyyətli uşaqlar, yeniyetmələr və gənclər arasında idmana marağı artırmaq, onların fiziki və psixoloji inkişafını dəstəkləməkdir. Bunun üçün ixtisaslaşmış məktəblərlə və ictimai birliklərlə sıx əməkdaşlıq qurulub, müxtəlif bölgələrdə yeni idman proqramları hazırlanır”.

N.Novruzov qeyd edib ki, Azərbaycan XXV Yay Deflimpiya Oyunlarında 6 idman növündə təmsil olunacaq. O, turnirdə 20 idmançının iştirak edəcəyini bildirib:

“Komandamız bu yarışda ilk dəfə 6 idman növündə 20 idmançı ilə təmsil olunacaq. Sevindirici məqam odur ki, komandada 5 xanım idmançı yer alacaq. Onlardan 3-ü taekvondo, 1-i karate, 1-i isə üzgüçülük üzrə yarışda çıxış edəcək. Bu fakt qadın idmançılarımızın beynəlxalq arenada fəal iştirakının, onların peşəkarlığının göstəricisidir. Bu, ölkəmizdə qadınların idmanda rolunun güclənməsinin və gender bərabərliyinə verilən önəmin bariz nümunəsidir”.




“Komanda yaxın günlərdə Yaponiyaya yollanacaq və XXV Yay Deflimpiya Oyunlarında iştirak edəcək. İnanıram ki, idmançılarımız ölkəni layiqincə təmsil edəcəklər. Qatılacağımız idman növləri ənənəvidir. Karate, cüdo, güləş, taekvondo, həmçinin üzgüçülük və atıcılıq üzrə növlərdə də iştirak edəcəyik”. N.Novruzov komitədə görülən işlərlə bağlı da danışıb:

“Eşitmə məhdudiyyətli idmançıların yer aldığı Deflimpiya Komitəsi 2023-cü ildə təsis edilib. Faktiki olaraq 2024-cü ildə tərkib formalaşıb və strukturda müəyyən dəyişikliklər olub. Komitə 2025-ci ilin mayında Beynəlxalq Karlar İdman Komitəsinə üzv seçilib. Artıq beynəlxalq arenalarda ölkəmizi təmsil etmək hüququna malikik. Komitə tərəfindən kifayət qədər böyük işlər görülüb. İdmançıların müayinədən keçməsi, tibbi dəstəklə yanaşı, təlim-məşq toplanışlarını təşkil edirik. Digər federasiyalar da bu yöndə bizə dəstək göstərir. Onların hər birinə təşəkkür edirəm”.

Qeyd edək ki, XXV Yay Deflimpiya Oyunları noyabrın 5-26-sı aralığında Yaponiyanın paytaxtı Tokioda keçiriləcək.

## Kimlərdə görmə itkisi riski daha çoxdur?



Yeni tədqiqat göstərib ki, idiopatik kəllədaxili hipertenziya (yəni səbəbsiz yüksək beyin təzyiqi) olan bəzi insanlarda görmə itkisi riski digərlərindən daha yüksəkdir. Bu vəziyyət, xüsusilə gənc və artıq çəkili qadınlarda daha çox rast gəlinir.

AZƏRTAC “MedicalXpress” portalına istinadla xəbər verir ki, Cənubi Danimarka Universitetinin alimlərinin apardığı və 29 oktyabr 2025-ci ildə “Neurology” jurnalında dərc olunan araşdırmaya 154 nəfər cəlb edilib. İştirakçıların əksəriyyətində optik diskin şişməsi - papillödem müşahidə olunub. Nəticələrə görə, iştirakçıların 69 faizində görmədə kor ləkələr (skotomalar), 26 faizində isə görmə kəskinliyində azalma olub. Müalicədən sonra belə, pasiyentlərin yarısında görmə problemləri davam edib, 13%-də isə görmə kəskinliyi tam bərpa olunmayıb.

Araşdırma göstərib ki, görmə itkisinə iki əsas mexanizm səbəb olur: Optik sinir liflərinin zədələnməsi - bu, daha çox periferik (yan) görmə itkisinə gətirib çıxarır. Tor qişanın mərkəzi hissəsində zədələnmə - bu zaman görmə kəskinliyi azalır və tam bərpa olunmur.

Tədqiqatçılar həkimlərə kimin daha çox risk altında olduğunu müəyyənləşdirmək üçün yeni qiymətləndirmə sistemi hazırlayıblar. Bu sistemdə papillödemin şiddəti və tor qişa təbəqələrinin struktur dəyişiklikləri əsas göstəricilər sayılır.

Mütəxəssislər vurğulayırlar ki, yüksək beyin təzyiqi vaxtında aşkar edilərək müalicə olunmazsa, davamlı görmə itkisi ilə nəticələnə bilər.

## Diabetin əsas səbəbini hədəf alan yeni müalicə yolu...

ABŞ-ın “Nyu Langone Health” mərkəzinin tədqiqatçıları diabetlə bağlı orqan və toxuma zədələnməsini azalda biləcək yeni bir dərman namizədi olan “RAGE406R” üzərində ümidverici nəticələr əldə ediblər.

AZƏRTAC “scitechdaily.com” portalına istinadla xəbər verir ki, aparılan siçan təcrübələri göstərib ki, yeni birləşmə diabetin səbəb olduğu hüceyrə zədələnməsini, iltihabı və yara sağalmasındakı ləngiməni azaldır. “RAGE406R” adlı birləşmə “RAGE” və DIAPH1” adlı iki zülalın qarşılıqlı təsirini bloklayaraq zədələnmələrin qarşısını alır.



Tədqiqatın müəlliflərindən doktor Ann-mari Şmid bildirib ki, hazırda diabetin əsas səbəblərini aradan qaldıran heç bir dərman yoxdur: “RAGE406R yüksək qan şəkərini azaltmaqla deyil, “RAGE”in hüceyrədaxili fəaliyyətini bloklayaraq təsir göstərir”.

Əvvəlki dərman namizədi “RAGE229” genetik risklər səbəbindən dayandırılmışdı, lakin “RAGE406R” həmin riskləri daşımır və daha təhlükəsiz sayılır. Yeni birləşmə həm 1-ci, həm də 2-ci tip diabetdə yaranın sağalmasını sürətləndirdiyi və iltihabı azaltdığı üçün potensial müalicə variantı kimi qiymətləndirilir.

Professor Aleksandr Şextman isə qeyd edib: “Tapıntılarımız hər iki diabet növü üçün yeni və təsirli müalicələrin hazırlanmasına yol aça bilər”.

Tədqiqatın nəticələri “Cell Chemical Biology” jurnalında dərc olunub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4961**
**Sifariş: 2260**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova